Aqrar Xidmətlər Agentliyi

# Üzümdə Mildium
## (Plasmopara viticola (Berkeley&Curtis) (Berlese&de Toni)



088-588
axa.gov.az

# Zərərli orqanizm haqqında

Yazda cavan yarpaqların üzərində açıq-yaşıl rəngli və ya sarı ləkələr əmələ gəlir. Sonra bu ləkələr yağlı ləkələrə çevrilir və qonurlaşır. Yarpağın aşağı hissəsində ləkə yerlərində yağışlı havalarda çoxlu ağ tüklü örtük – xəstəliyin törədicisinin sporları əmələ gəlir. Xəstəliyə yoluxmadan 2-3 həftə sonra yarpaqların toxumaları quruyur və onlar tökülür. Cavan zoğların üzərində qonur, azca batıq ləkələr meydana çıxır. Xəstəliyin güclü inkişafı zamanı zoğlar quruyur, bığcıqlar kövrək olur və rütubət çox olduqda çürüyür. Çiçək və qönçələr qonurlaşır və məhv olur. Çox vaxt mildium salxımların darağını zədələyir. Daraq məhv olaraq yuxarıda olan digər hissələrin –çiçəklərin, buğumların məhvinə səbəb olur.

# Mübarizə tədbirləri

**Aqrotexniki mübarizə**

- Yaşıl əməliyyatları vaxtında, düzgün yerinə yetirməli
- Sirayətli orqanların qoparılması ilə infeksiya mənbəyinin məhvi
- Alaqların məhv edilməsi
- Kolun areasiyasını təmin etmək üçün seyrəldilməsi

**Kimyəvi mübarizə**

- Təsiredici Mankozeb (2kq/ha), Mis hidroksid (3kq/ha), Mis xloroksid (0,4kq/ha) olan preparatlar ilə kimyəvi mübarizə tədbirləri aparılmalıdır.



# Zədəsi